Bayram və ümumxalq hüzn gününün əmək məzuniyyəti dövrünə düşdüyü hallarda əmək məzuniyyətinin müddətinin uzadılması barədə

# İZAHAT

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının əmək qanunvericiliyi sisteminə Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələr, o cümlədən Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş Beynəlxalq Əmək Təşkilatının "Ödənişli məzuniyyətlər haqqında" 132 №-li Konvensiyası aid edilir.

"Ödənişli məzuniyyətlər haqqında" 132 №-li Konvensiyanın 6-cı maddəsinə əsasən rəsmi və ənənəvi bayram və qeyri-iş günləri işçinin illik əmək məzuniyyəti dövrünə düşüb-düşməməsindən asılı olmayaraq illik ödənişli əmək məzuniyyətinin bir hissəsi kimi hesaba alınmırlar.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 105-ci maddəsi ilə hər il iş günü hesab olunmayan aşağıdakı bayram günləri müəyyənləşdirilmişdir:

| | | |
|---|---|---|
| 1-2 yanvar | – | Yeni il; |
| 8 mart | – | Qadınlar günü; |
| 9 may | – | Faşizm üzərində qələbə günü; |
| 28 may | – | Respublika günü; |
| 15 iyun | – | Azərbaycan xalqının milli qurtuluş günü; |
| 26 iyun | – | Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü; |
| 31 dekabr | – | Dünya azərbaycanlılarının həmrəyliyi günü; |
| | | |
| Novruz bayramı | – | 5 gün; |
| Qurban bayramı | – | 2 gün; |
| Ramazan bayramı | – | 2 gün. |

Əmək Məcəlləsinin 106-cı maddəsinə əsasən hər il yanvar ayının 20-si Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsini yad etmə günü— ümumxalq hüzn günüdür və bu gün iş günü hesab edilmir.

Beynəlxalq Əmək Təşkilatının "Ödənişli məzuniyyətlər haqqında" 132 №-li Konvensiyasının 6-cı maddəsinin və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 105-ci maddəsinin 5-ci, 6-cı hissələrinin və 114-cü maddəsinin 5-ci hissəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasında bayram günləri və ümumxalq hüzn günü əmək məzuniyyəti dövrünə düşdükdə (istirahət günlərinə düşüb-düşməməsindən asılı olmayaraq) əmək məzuniyyətinin müddəti bu günlərin sayı qədər haqqı ödənilmədən uzadılır.

Bu İzahatın tətbiqi ilə əlaqədar "Bayram və ümumxalq hüzn gününün əmək məzuniyyəti dövrünə düşdüyü hallarda əmək məzuniyyətinin müddətinin uzadılması barədə" Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2006-cı il 13 yanvar tarixli 11/34-12 nömrəli və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 13 yanvar 2006-cı il № 15b.18ə nömrəli birgə İzahatı qüvvəsini itirmiş hesab edilsin.

Azərbaycan Respublikasının
əmək və əhalinin sosial müdafiəsi
naziri

Fizuli Ələkbərov

"19" 04 2007-ci il

№ 11/34-82

Azərbaycan Həmkarlar İttifaqları
Konfederasiyasının sədri

Səttar Mehbalıyev

"11" 2007-ci il

№ 19b390